Support for Improvement in Governance and Management
A joint initiative of the OECD and the EU, principally financed by the EU

SIGMA

**4-cü Xülasə** Yanvar 2011-ci il

## Dövlət satınalmaları

# Satınalmalar haqqında direktivlər hansı müqavilələri əhatə edir?

MÜNDƏRİCAT


- Ümumi kontekst: Müqavilələrin növləri, ümumi xüsusiyyətlər
- İş, mal yoxsa xidmət satınalması haqqında müqavilə
- Müqavilələrin təsnifatı
- İstisnalar


EUROPEAN COMMISSION

OECD BETTER POLICIES FOR BETTER LIVES

Bu sənəd Avropa İttifaqının maliyyə yardımı ilə hazırlanmışdır. Burada ifadə olunan fikirlər heç vəchlə Avropa İttifaqının rəsmi rəyi kimi qəbul edilə bilməz və İƏİT, yaxud ona üzv dövlətlərin və ya Sigma proqramında iştirak edən benefisiar ölkələrin fikirlərini əks etdirməyə bilər.

Direktivlər üç əsas müqavilə növünü əhatə edir: iş, mal və layihələndirmə müsabiqələri daxil olmaqla, xidmət müqavilələri.

Bəzi müqavilələr yuxarıda adıçəkilən növlərin bir və ya bir neçəsinin xüsusiyyətlərini daşıyır. Beləliklə, binanın inşa edilməsi məqsədini daşıyan bir müqaviləyə layihələndirmə xidmətləri və müəyyən zəruri mallar daxil ola bilər. Bənzər qaydada malların satınalması haqqında müqaviləyə yerləşdirilmə və quraşdırılma xidmətləri daxil ola bilər. Bu cür "qarışıq müqavilələr"in təsnif edilməsi üçün direktivə xüsusi qaydalar daxil edilmişdir.

Bir sıra müqavilələr ya mahiyyətcə direktivlərin müddəalarına qeyri-müvafiq olduqlarına, ya da fərqli tənzimləmə və idarəetmə sisteminə tabe olduqlarına görə (bəzən Sazişin əhatə dairəsinə daxil olsalar da) direktivlərin tətbiq dairəsindən kənarda qalmışdır. Bəzi müqavilələrə - yeni "rezerv edilən müqavilələrə" malları, məhsulları və ya xidmətləri təmin edənlərin kimliyindən dolayı fərqli qaydalar tətbiq edilir.

Hətta tətbiq dairəsindən kənarda qalmasalar belə, müqavilələr yalnız direktivlərlə müəyyən edilmiş dəyəri - Aİ maliyyə həddini ötdükdə - direktivlərin müddəalarına tabe olurlar. Bu hədlər Avropa İqtisadi Cəmiyyətinin qanunvericilik orqanı tərəfindən sərhədlərarası ticarət üçün müvafiq hesab edilən səviyyəni əks etdirir (Şəraitdən asılı olaraq iddiaçılar başqa Aİ-yə üzv dövlətlərdə müəyyən ediləndən aşağı həddə müqavilələrin bağlanmasında maraqlı ola bilərlər - lakin yadda saxlamaq lazımdır ki, ümumi prinsiplər bu müqavilələrə hər bir halda tətbiq edilir). Bağlanacaq müqavilənin dəyərinin hesablanması üçün yaradıcı metodların kəşf edilməsinin qarşısının almaq, eyni zamanda direkitvin müvafiq müddəalarına uyğun gəlməməsi üçün müqavilələrin bölünməsini, birləşdirilməsini qadağan etmək üçün direktivlər həmçinin hesablama qaydalarını və metodlarını müəyyən edir. Daha ətraflı məlumat üçün bax: *Dövlət Satınalmaları 5-ci Xülasə - Aİ maliyyə hədlərinin başa düşülməsi*.

Direktivlərdə "müqavilələr"lə "konsessiya müqavilələri" arasında aparılan fərqləndirmə də vacibdir, belə ki, konsessiya müqavilələrinə müqavilələrdən fərqli yanaşılır. İşlərin təmin edilməsi üzrə konsessiya müqavilələrin bağlanması üçün dövlət sektorunda satınalmalar direktivində xüsusi qaydalar müəyyən olunur, lakin xidmətlərin təmin edilməsi üzrə konsessiya müqavilələri həm dövlət sektorunda satınalmalar direktivinin, həm də kommunal müəssisələrin satınalma prosedurları haqqında direktivin tətbiq dairəsinə daxil deyil.

**Ümumi xüsusiyyətlər:** Direktivin əhatə etdiyi bütün müqavilə növlərinin ortaq ümumi xüsusiyyətləri vardır:

Direkitvlər təsərrüfat subyekti ilə satınalan təşkilat arasında yazılı qaydada maddi maraq naminə bağlanmış aşağıdakı xüsusiyyətlərə malik müqavilələrə şamil edilir:

- **Müqavilə maddi marağa xidmət etməlidir**, başqa sözlə pul və ya ekvivalent haqq üçün bağlanmalıdır. Ödənişin necə aparıldığından asılı olmayaraq, maddi maraq mövcud olmalıdır.
- **Müqavilə yazılı formada olmalıdır.** Baş vermə ehtimalı az olsa da, direktivin tətbiq dairəsinə düşən müqavilə yazılı şəkildə bağlanmadıqda, Sazişə daxil olan ümumi qaydalar tətbiq edilməlidir
- **Müqavilələrdə iki tərəf olmalıdır:** təsərrüfat subyekti və satınalan təşkilat.

## Müqavilənin bağlanması ehtiyacı nə zaman yaranır?

Adətən yeni müqavilə formalaşdıqda, bunun müəyyən edilməsi çətin olmur. Lakin bəzən bu, tam aydın olmur. Məsələn, mövcud bir müqavilə dəyişdirilə və ya yenilənə bilər. Müqaviləyə icra müddətində də düzəliş edilə bilər. Tərəflər arasında yeni öhdəliklərə rəvac verən belə hallar ilkin variantdakı müqavilənin şərtlərini dəyişmiş ola bilər.

Əgər bu dəyişikliklərin nəticələri yenilənmiş və ya düzəliş edilmiş müqavilənin ilkin variantından fundamental dərəcədə fərqlənməsinə gətirib çıxarırsa, bu halda yeni müqavilənin təsdiq edilməsi zəruri ola bilər. Əgər yeni bir müqavilə formalaşırsa və bütün müqavilə elementləri mövcuddursa, o halda həmin müqavilə satınalma qaydalarına tabe olmalıdır, başqa sözlə, direktivlərin müddəalarına müvafiq qaydada təltif edilməlidir. Bu o deməkdir ki, müsabiqə keçirilmədən, hətta müqavilə müddətinin uzadılmasına, müqavilənin yenilənməsinə və ya müqaviləyə düzəliş edilməsinə icazə verilmir.

## İşlərin satın alınması müqaviləsi nədir?

İşlərin satın alınması müqavilələrinə aşağıdakı müqavilələr aid edilir:

- Dövlət sektorunda satınalmalar direktivinin I Əlavəsində (Kommunal müəssisələrin satınalma prosedurları driektivinin XII Əlavəsi) istinad edilən fəaliyyətlərdən biri ilə əlaqədar işlərin yerinə yetirilməsi və ya həm yerinə yetirilməsi, həm də layihələndirilməsi məqsədi daşıyan müqavilələr;

- predmeti satınalan təşkilat tərəfindən müəyyən edilmiş tələblərə müvafiq işlərin hər hansı yolla yerinə yetirilməsindən ibarət olan müqavilələr.

Layihələndirmə işləri işlərin satın alınması müqavilələrinə daxil edilə bilirsə, deməli "layihələndirmə və inşaat" müqavilələri işlərin satın alınması müqavilələrinin tərifinə uyğun gələ bilər. Bura, məsələn, hər hansı layihənin planlaşdırılmasını, maliyyələşdirilməsini, eləcə də icrasını əhatə edən müqavilələr daxil ola bilər. Layihələndirmə və inşaat məqsədi daşıyan müqavilələr ayrı-ayrılıqda bağlandıqda, layihələndirmə xidmətləri prioritet xidmət hesab edilməlidir, yaxud müqavilə layihələndirmə müsabiqəsi vasitəsi ilə də bağlana bilər.

Tərifin ikinci hissəsinə əsasən, "iş" tikinti və ya inşaat-mühəndis işlərinin ayrıca iqtisadi və texniki funksiya kimi çıxış edə biləcək nəticələridir. Bu tərif bir çox səbəblərdən əlverişlidir, xüsusən hədd göstəricilərinin qiymətləndirilməsi və vahid iş tələbinin müvafiq hədd göstəricisindən az olması məqsədi ilə bölünüb-bolünmədiyinin qərarlaşdırılması üçün.

## Malların satın alınması müqaviləsi nədir?

Malların tərifi iş və ya xidmətin tərəfinə nisbətən daha sadədir. 'Dövlət sifarişi ilə malların təchizatı müqavilələri' dedikdə, işlərin satın alınması müqavilələrindən fərqli olaraq, məhsullarının alınmasını, icarəsini, kirayəsini, alış hüququ olmaqla və ya olmamaqla kreditlə icarəsini ehtiva edən müqavilələr nəzərdə tutulur. Əlavə olaraq, belə məhsulların çatdırılmasına yerləşdirmə və quraşdırılma əməliyyatları da daxil ola bilər.

Direktivlərin əhatə etdiyi məhsul çeşidləri ilə məhsullar haqqında elanın verilməsi zamanı məhsulların təsvir edilməsi məqsədi ilə istifadə edilən müxtəlif nomenklaturalarda tanış olmaq olar. Məsələn, vahid alış klassifikatoruna (VAK) baxın.

## Xidmətlərin satın alınması müqaviləsi nədir?

"Xidmətlərin satın alınması" termini işlərin satın alınması müqavilələri və malların təchizatı müqavilələrindən fərqli olaraq, predmeti dövlət sektorunda satınalmalar direktivinin II Əlavəsində (Kommunal müəssisələrin satınalma prosedurları haqqında direktivin XII Əlavəsi) müəyyən edilən xidmətlərin təmin edilməsindən ibarət olan müqavilələrə istinadən istifadə edilir. Bir sıra xidmətlər əksər hallarda direktvilə müəyyən edilən qaydalara əsasən satın alınmaq üçün uyğun olmadıqlarına görə tətbiq dairəsinə daxil edilməmişlər.

## Xidmətlərin satın alınması müqavilələri: İki mərhələli yanaşma

Direktiv prioritet olan və olmayan xidmətləri bir-birlərindən fərqləndirir. Bu fərqləndirmə konkret bir fəaliyyətin mahiyyətindən çox, dövlət sərhədləri arasında xidmətlərin göstərilməsi potensialına, eləcə də bu xidmətlərin üzv dövlətlər arasındakı ticarətə mənfi təsir edə biləcəyinin şübhə doğurmamasına əsaslanır.

Bu fərq IIB Əlavəsində sıralanan yerli səviyyədə rəqabətə səbəb olsa belə, xidmətlərin xarakteristikasından (məsələn, ölkə qanunları və yurisdiksiyası ilə tanışlığa əsaslanan hüquqi və inzibati xidmətlər) və ya təmin edilməli olduğu yerdən (məsələn, otel və ya restoran xidmətləri) asılı olaraq beynəlxalq müsabiqə üçün daha az əlverişli olan xidmətlərə münasibətdə xüsusən tez nəzərə çarpır.

Bu o demək deyil ki, belə müqavilələr rəqabətə səbəb ola bilməz, yaxud onlar üçün yerli, ölkə səviyyəsində və ya beynəlxalq səviyyədə müsabiqənin keçirilməsi ağlasığmazdır, sadəcə bu xidmətlərin mahiyyəti və ya dəyəri bu ehtimalın nisbətən az olduğunun düşünməyə əsas verir.

Dövlət sektorunda satınalmalar direktivinin IIA Əlavəsində sıralanan prioritet xidmətlərə müqavilənin bağlanması üçün nəzərdə tutulan əhatəli prosedurlar və direktivlərin digər müddəaları tətbiq edilir.

Prioritet hesab olunmayan xidmətlər yalnız direktivlərin ayrı-seçkiliyə yol verməyən texniki spesifikasiyaların hazırlanması və müqavilənin təltif edilməsi haqqında bildirişin dərc edilməsi haqqında müddəalarına riayəti tələb edən şəffaflıq rejiminə tabe olurlar.

## Müxtəlif elementlərin daxil olduğu müqavilələr necə təsnif edilir?

Müqavilələrin işlərin satın alınması, xidmət və ya malların satın alınması müqaviləsi kimi təsnif olunması vacibdir, çünki müxtəlif müqavilə növlərinə direktivlərin müxtəlif müddəaları tətbiq edilir. Problem iş və/və ya mal və/və ya xidmətlərin satın alınmasının kombinasiyası olan müqavilələrin düzgün təsnifatı ilə əlaqədar meydana çıxır. Direktivlərdə bu məsələnin necə həll edilməsi ilə bağlı müddəalar mövcuddur, məsələn:

**Birdən artıq prioritet və qeyri-prioritet xidmətlərin daxil olduğu müqavilələr – dəyər analizi:** Direktivlər həm prioritet təşkil edən, həm də təşkil etməyən xidmətləri əhatə edən xidmət satın alınması müqavilələrinə münasibətdə konkret dəyər analizi tətbiq edir. Prioritet xidmətlərin dəyəri qeyri-prioritet xidmətlərin dəyərini ötdükdə, müqavilələr prioritet xidmətlər üzrə bağlanır. Qeyri-prioritet xidmətlərin dəyəri prioritet xidmətlərin dəyərini ötdükdə, müqavilələr qeyri-prioritet xidmətlər üzrə bağlanır.

**Mallar/xidmətlər – dəyər analizi:** Həm mal, həm də xidmət elementlərinin daxil olduğu müqavilələrə hər bir elementin təmsil etdiyi dəyərdən asılı olaraq, ya xidmət, ya da mal satın alınması müqaviləsi kimi yanaşılır.

Yerinə yetirilən xidmətlərin dəyəri təchiz edilən mallardan çox olduqda, belə müqavilə xidmətlərin satın alınması müqaviləsi hesab edilir. Dəyərlər bərabər olduqda, müqaviləyə malların satın alınması müqaviləsi kimi baxılır. Tərif prioritet olan və olmayan xidmətlər arasında fərqləndirmə aparmır, nəticədə qarışıq tərkibli müqavilədə qeyri-prioritet xidmətlərin dəyəri malların dəyərindən yüksək olduqda, bütöv müqaviləyə qeyri-prioritet xidmət müqaviləsi kimi baxılır.

**İşlər/xidmətlər – əsas predmet analizi:** İşlər və xidmətlər üçün dəyər analizi olmasa da, direktivə belə müqavilələrin əsas predmetini önə çəkən analiz daxildir. Nümunə daxil edin.

**İşlər/mallar:** Direktivə əsasən, yerləşdirmə və quraşdırılma kimi ikinci dərəcəli əməliyyatların daxil olduğu mal təchizatı müqavilələri malların satın alınması müqaviləsi kimi təsnif edilir. Məsələn, gəmi təmiri emalatxanasında quraşdırılmalı olan kranın satın alınması halında müqavilənin predmeti, hətta həcmi kifayət qədər böyük olsa da, kranın yerləşdirilməsi işləri deyil, təchiz edilməsidir.

İş və xidmət müqavilələrinin necə fərqləndirilməli olduğunu əks etdirən bu "əsas predmet analizi", hətta yerləşdirilmə və qurulma xidmətlərinin dəyəri təchiz edilən malın dəyərindən yüksək olduqda da tətbiq edilməlidir, belə ki, bu, mallar və xidmətlər arasında fərqləndirmənin aparılması üçün istifadə olunan dəyər analizi deyil, müqavilənin əsas predmetinin əsas götürüldüyü analizdir.

## Direktivlər müqavilələrin başqa növlərinə də şamil edilirmi?

Bəli, direktivlər müqavilənin bağlanması ilə əlaqədar xüsusi prosedurların tətbiq edildiyi bir sıra başqa müqavilələrə də şamil edilir. Bura subsidiyalaşdırılmış iş və ya xidmət müqavilələri, yaşayış komplekslərinin subsidiyalaşdırılmış inşaatı üçün nəzərdə tutulan müqavilələr və işlərin təmin edilməsi üzrə konsessiya müqavilələri daxildir.

**Tez-tez verilən suallar 1:**

**PPP müqaviləsi nədir?** PPP akronimi “Dövlət və özəl sektor arasında əməkdaşlığı” bildirir. PPP müqaviləsinin vahid və ya sadə tərifi mövcud deyil, belə ki bu termin bir sıra müxtəlif müqavilə növlərini və çatdırılma modellərini əhatə edir. PPP bir qayda olaraq satınalan təşkilatın (dövlət sektoru) infrastruktur və ya ictimai xidmətlərin göstərilməsi üçün özəl sektor təşkilatı ilə razılığa gəldiyini təsdiq edən müqavilələrə aid edilir. Struktur müqaviləyə əsaslanan və ya institusional səciyyəli ola bilər, institusional struktur həm satınalan təşkilatın, həm də özəl sektoru təmsil edən tərəfin infrastrukturun və ya xidmətin təmin edilməsi məqsədilə iştirak etdiyi birgə müəssisənin təsis edilməsini ehtiva edir.

Əsas PPP xüsusiyyətlərindən biri riskin özəl sektora ötürülməsi, yaxud özəl sektorla bölüşdürülməsidir və PPP müqavilələri hər zaman olmasa da, çox vaxt uzunmüddətli olur. PPP çərçivəsində ödəniş və maliyyələşdirmə metodları müxtəlif ola bilər. Ödənişləri satınalan təşkilat və ya obyekt istifadəçiləri kimi üçüncü tərəflər həyata keçirə bilər, yaxud mənbələrin kombinasiyası vasitəsilə ödəniş edilə bilər. Maliyyələşdirmə satınalan təşkilat, özəl sektor, bank kimi kənar sponsorlar və ya birləşdirilmiş mənbələr vasitəsi ilə həyata keçirilə bilər.

Əksər PPP müqavilələri direktivin tam tətbiq dairəsinə daxildir. Konsessiya müqavilələri haqqında şərhlər üçün bax: Tez-tez verilən suallar 2.

**Tez-tez verilən suallar 2:**

**Konsessiya müqaviləsi nədir və Direktivin tətbiq dairəsinə daxildirmi?** Təmin ediləcək xidmətlərin və ya işlərin əvəzinin iş və ya xidmətin istismar edilməsi hüququnun verilməsi, yaxud da ödənişin alınması səlahiyyəti ilə birgə istismar edilməsi hüququn verilməsi ilə ödənməsi istisna olmaqla konsessiya müqavilələri direktivlərdə müəyyən edilən müqavilə növlərindən fərqlənmir.
Çox vaxt konsessiyaçılar "xidmətin" istismarından qazanc əldə etmək şansı müqabilində ictimai xidmətin təmin edilməsi ilə bağlı əməliyyat və maliyyə risklərini öz üstlərinə götürürlər. Bəzən konsessiya müqavilələri PPP müqavilələrinin bir forması kimi təsnif edilə bilər.

Məsələn, konsessiya müqavilələri əsasən konsessiyaçının muzd haqqının istifadəçilərdən alınan rüsum hesabına ödənildiyi yol şəbəkələrinin, körpülərin və ya tunellərin tikintisi ilə əlaqədar infrastruktur layihələrinin həyata keçirilməsi və maliyyələşdirilməsi üçün istifadə edilir. Lakin onlardan həmçinin konsessiyaçıların artıq mövcud olan komplekslərin idarə etməsi və texniki xidmətini (tikintisini deyil) təmin etməsi məqsədilə istifadə edilir, məsələn, mövcud dəmir yolu və ya metro infrastrukturunun idarə edilməsi üçün. Birinci konsessiya növü işlərin təminatı üzrə konsessiya müqavilələrinə; sonuncu isə xidmətlərin təmin edilməsi üzrə konsessiya müqaviləsinə nümunədir.

Dövlət sektorunda satınalmalar direktivində yalnız işlərin təmin edilməsi üzrə konsessiya müqavilələrindən xüsusi yer verilir.

Dövlət sektorundan satınalmalar direktivi xidmətlərin təmin edilməsi üzrə konsessiya müqavilələrini öz tətbiq dairəsindən birmənalı şəkildə xaric edir. Lakin hər halda Sazişin ümumi prinsipləri tətbiq edilir.

## İstisnalar

Hətta dövlət sifarişinin ümumi termininə uyğun gələn bəzi müqavilələr bir sıra səbəblərdən direktivlərin tətbiq dairəsindən kənarda qala bilər. Bu müqavilələrinin bəziləri mahiyyətləri etibari ilə müsabiqə üçün əlverişli olmadıqlarına görə istisna təşkil edir. İstisnaların bəziləri yalnız xüsusi növ müqavilələrə şamil edilir. Bəziləri dövlətlər xüsusi səbəblərdən dolayı, həmin müqavilələri müsabiqədən azad etmək istədikləri üçün istisna edilirlər. Həmçinin tətbiq dairəsindən kənarlaşdırılmasa da, imtiyazlı yanaşmadan yararlanan "rezerv edilmiş müqavilələr" kateqoriyası mövcuddur.

Bundan əlavə, dövlət sektorunda satınalmalar direktivi kommunal müəssisələrin satınalma prosedurları haqqında direktiv tərəfindən əhatə olunan dövlət sifarişi müqavilələrinin, yaxud kommunal müəssisələrin satın alma prosedurları haqqında direktivlə əhatə olunsalar da, direktiv müddəalarının tətbiqindən azad edilmiş dövlət sifarişi müqavilələrinin öhdəliklərdən azad edilməsini təmin edir.

## Müqavilənin mahiyyətindən irəli gələn istisnalar

**Torpağın satın alınması müqavilələri:** Hər hansı mailiyə vasitələri ilə mövcud binaların və ya digər daşınmaz əmlakın əldə edilməsi ,yaxud icarəsi və ya onlar üzərində mülkiyyət hüququnun əldə edilməsi üçün bağlanan müqavilələr direktivin tətbiq dairəsindən kənarda qalır. Bu müqavilələr mahiyyət etibari ilə coğrafi məkandan asılı olan daşınmaz əmlakla əlaqəli olduqları üçün istisna təşkil edirlər. Belə müqavilələr əsasən yerli bazar daxilində bağlanır və onların predmeti bir qayda olaraq real səhədlərarası rəqabət perspektivini istisna edir.

Qeyd edilməlidir ki, bu istisnanın tikinti müqavilələrinə və mülkiyyətlə bağlı digər razılaşma növlərinə şamil edilməsi mütləq deyil, əsasən ona görə ki, işlərin satın alınması üzrə müqavilələr ümumi razılaşmanın bir hissəsi kimi təltif edilir.

**Xüsusi xidmətlərlə əlaqədar istisnalar:** Bu istisnalar ya müəyyən təşkilatlara müəyyən xidmətlərin həyata keçirilməsi üçün müstəsna hüququn verilməsinə, ya da bır sıra dəqiq müəyyən edilmiş xidmətlərin növünə əsaslanan konkret şəraitlərə şamil edilr.

- Müstəsna hüquq əsasında təmin edilən xidmət müqavilələri
- Yayımlanma materialı və vaxtı
- Arbitraj və razılaşdırma xidmətləri
- Müəyyən maliyyə xidmətləri
- Əmək müqavilələri
- Elmi tədqiqatların və işlərin yerinə yetirilməsi üçün nəzərdə tutulan bəzi müqavilələr

## Seçimə əsaslanan istisnalar

Bu istisnalar hərbi səciyyəli, məxfiliyin qorunmasını və razılaşmaya əsasən fərqli satınalma qaydalarının tətbiqini tələb edən satınalmalara aiddir. Hər üç istisna edilmə növü dövlət sektorunda satınalmalar direktivinə aiddir.

**Müdafiə sahəsində satınalmalar:** əsas təhlükəsizlik maraqlarının qorunmasının zəruri olduğu hallarda, müdafiə və təhlükəsizlik sahəsində təltif edilən, müdafiə sahəsində

satınalma prosedurlarının koordinasiyası haqqında 2009/81 saylı direktivlə əhatə edilməyən müəyyən müqavilələr üçün

**Məxfiliyin qorunması tədbirlərinin görülməsini tələb edən müqavilələr:** Direktivlər aşağıdakı dövlət sifarişlərinə şamil edilmir: (i) məxfi elan edilmiş, (ii) icrası aidiyyəti olan üzv dövlətdə qüvvədə olan qanun, norma və ya inzibati qaydalara əsasən xüsusi təhlükəsizlik tədbirləri ilə müşayiət edilməli olan müqavilələr (iii) dövlətin təhlükəsizlik maraqlarına əsasən istisna edilməsi tələb olunan müqavilələr.

**Başqa qaydalara əsasən tənzimlənən müqavilələr:** Direktivlər fərqli prosedur qaydalarında əsasən tənzimlənən və təltif edilən müqavilələrə şamil edilmir:

- hər hansı üzv dövlətlə bir və ya daha artıq üçüncü ölkə arasında Aİ sazişinə əsasən bağlanan beynəlxalq razılılaşmaya uyğun olaraq hər hansı layihənin razılaşma iştirakçıları tərəfindən birgə həyata keçirilməsi və ya istismarı üçün nəzərdə tutulan iş, xidmət və ya malları əhatə edən müqavilələr;

- hərbi qüvvələrin yerləşdirilməsi ilə əlaqədar beynəlxalq razılaşmalara uyğun olaraq, üzv dövlətlərlə və ya üçüncü ölkələrlə bağlanan müqavilələr;

- Birləşmiş Millətlər Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı və ya Dünya banlı kimi beynəlxalq təşkilatların xüsusi prosedurlarına əsasən bağlanan müqavilələr.

## Rezerv edilən müqavilələr

Direktivlərdə tətbiq dairəsindən kənarda qalmayan, lakin iştirakçılarının xüsusi seçilmə hüququndan yararlandığı yeni "rezerv edilmiş" müqavilələr kateqoriyasını təqdim edildi. Aİ-yə üzv dövlətlər əlil emalatxanaları ilə əlaqədar olaraq dövlət sifarişi müqavilələrinin təltif edilməsi prosedurlarında iştirak hüququnu rezerv edə və ya belə müqavilələrin əməkdaşlarının əksəriyyətinin normal şərtlər altında əmək fəaliyyəti göstərə bilməyən sağlamlıq imkanları məhdud şəxslər üçün məşğulluq proqramları kontekstində icra edilməsini təmin edə bilələr.

### Kommunal müəssisələr

### Kommunal müəssisələr üçün istisnalar

Kommunal müəssisələrin satınalma prosedurları haqqında direktiv bazarlardakı rəqabət dərəcəsini nəzərə almaqla bir sıra kommunal xidmət sektorları üçün məxsusi istisnalar təmin edir. Bu istisnalara enerji hasilatı məqsədi ilə enerji və yanacağın satın alınması; su təchizatı məqsədi ilə suyun satın alınması, müəyyən avtobus nəqliyyatı xidmətləri; qaz və neft yataqlarının axtarışına və istismarına yönəlmiş geoloji kəşfiyyat işləri nümunə ola bilər. Kommunal müəssisələrin satın alınması prosedurları haqqında direktiv girişin məhdudlaşdırılmadığı bazarlarda güclü rəqabətə məruz qalan fəaliyyətlər üçün yeni ümumi istisna edilmə mexanizmi təqdim edir.

Kommunal müəssisələrin satınalma prosedurları haqqında direktivə həmçinin aşağıdakılar daxil olmaqla, kommunal xidmət sektoru üçün səciyyəvi, bir sıra digər istisnalar daxildir:

- **Avropa İttifaqının sərhədləri xaricində fəaliyyət:** Direktiv Avropa

İttifaqının coğrafi ərazisinin və ya ittifaqın sərhədləri daxilindəki şəbəkənin istifadə edilməməsi şərti ilə, satınalan təşkilatların müvafiq fəaliyyətlərin həyata keçirilməsi məqsədi ilə təltif etmədiyi müqavilələrə, yaxud üçüncü ölkələrdə həyata keçirilməsi üçün təltif etdiyi müqavilələrə şamil edilmir. .

- **Tabe müəssisələrə şamil edilən istisnalar:** Müəssisələr birgə mülkiyyət altında olduqda və ya qarşılıqlı asılı müəssisələrdən təşkil olunduqda, kommunal müəssisələrin satınalma prosedurları haqqında direktiv müəyyən şərtlər daxilində satınalmalarla bağlı xüsusi istisnalara yol verir. Bunlar korporativ daxili sövdələşmələr adı ilə də tanınan "müəssisə daxili" müqavilələr hesab olunur. Müəyyən şərtlərin ödənməsi səbəbindən istisna edilən müqavilələr əsas məqsədi açıq bazarda kommersiya səciyyəli xidmətləri satışa çıxarmaq deyil, məxsus olduqları qrup üçün mərkəzi xidmət təchizatçısı kimi çıxış etmək olan tabe müəssisələrə təltif edilən müqavilələrdir.

- **Təkrar satış və ya icarə məqsədli satınalmalar:** Direktivin tətbiq dairəsi üçüncü tərəflərə təkrar satış və ya icarə məqsədilə bağlanan müqavilələri istisna edir. Bu istisna satınalan təşkilatın sərbəst bazarda avadanlıqları satması və ya icarəyə verməsi üçün nəzərdə tutulan malların təchizatı müqavilələrinə şamil edilir. Yalnız satınalan təşkilat belə müqavilələrin predmetlərinin satılması və icarəyə verilməsi üzrə xüsusi və ya müstəsna hüquqa malik olmadıqda və digər müəssisələr eyni məhsulları eyni şərtlər altında satınalan təşkilat kimi satmaqda və ya icarəyə verməkdə azad olduğu halda bu müqavilələr istisna edilə bilər.

**Əlavə ədəbiyyat siyahısı:**

SIGMA Dövlət Satınalmaları haqqında Təlimat Kitabçası